## FİLOLOGİYA

https://doi.org/10.59849/3006-1342.2025.1.118
UOT 80

*Maya Murad qızı Həsənli*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Bakı ş., H.Cavid pr., 419*
*E-mail: mayaaxundova93@gmail.com*

# ƏZİZ NESİN SATİRALARINDA AVTOBİOQRAFİZM: HƏSƏN YAZMAN PROTOTİP KİMİ

*Böyük türk satiriki Əziz Nesinin çoxcəhətli bədii yaradıcılığında şəxsi avtobioqrafiyası, qarşılaşdığı hadisələr əsasında yaranan obraz və motivlər kifayət qədər olmuşdur. Yazıçı bir çox hallarda başına gələn hadisələri satirik qələmi ilə oxuculara çatdırmışdır. Bu baxımdan onun qırxa yaxın hekayəsində Həsən obrazına rast gəlinir ki, bu hekayələrdə yazıçı prototip kimi çıxış edir. Məqalədə Həsən Yazman obrazı və onun yaşantıları ilə yazıçının şəxsi bioqrafiyası qarşılaşdırılır. Satirik sənətkarın ağır şəraitli həyatının əsərlərində bədii əksini verdiyi məqamlar prototipi olduğu obrazın təhlili fonunda izah edilir.*

*Açar sözlər:* satira, tənqid, Əziz Nesin, türk ədəbiyyatı, prototip, yazıçı Həsən obrazı

Əziz Nesin (1915-1995) yarım əsrdən çox türk ədəbiyyatını zənginləşdirmiş, hər üç ədəbi növün janrlarında qələmini sınamış, əsərləri dünyanın 33 dilinə tərcümə edilmiş görkəmli satirik sənətkardır. Əziz Nesin Birinci Dünya Müharibəsi zamanı, Çanaqqala savaşının ən qızğın zamanlarında yoxsul bir ailədə dünyaya gəlmiş, uşaqlığı Osmanlı imperiyasının süqutu, yeni Cümhuriyyətin ehtiyaclarla dolu ilk illərinə təsadüf etmişdir. Ailəsinin maddi vəziyyətinin aşağı olması səbəbilə pulsuz yataqxana tipli məktəblərdə təhsil almalı olmuşdur. Daha sonra ciddi rejiminə rəğmən şəraiti daha yaxşı olan hərbi liseydə təhsilini davam etdirmişdir. 1930-cu illərdə, hərbi liseyin son siniflərində oxuyarkən yaradıcılığı vasitəsilə tanış olduğu Nazim Hikmət onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. *"Mənim ideoloji kimliyimin formalaşmasında Nazim Hikmətin böyük rolu olmuşdur. Mən onu ustad bəlləmişəm, müəllim bilmişəm. Onu özümə böyük mürid seçmişəm. Buna görə də özümü Nazimə həmişə borclu hiss etmişəm"* [11, s.89].

Yaradıcılığa 1941-ci ildən başlayan ədib dövrün sənətkarlıq mərkəzi hesab edilən Babialiyə sevgi şeirləri ilə daxil olmuş, hərbçi olduğu üçün öz adı olan Mehmet Nüsret Nesin istifadə edə bilməmiş, müxtəlif gizli imzalarla əsərlərini çap etdirmişdir. 1944-cü ildə hərbidən ayrıldıqdan sonra isə yazıçı kimi, öz imzası ilə "Yeddi gün", "Qaragöz", "Dan" kimi mətbu orqanlarla əməkdaşlıq etmişdir. Satirik ustad onu dünyaya tanıdan Əziz Nesin imzasını atası Əbdüləziz əfəndinin adından götürmüş və ilk dəfə 1944-cü ildə "Millət" qəzetinin 1 Yanvar sayında "Dost xətri" adlı hekayəsində istifadə etmişdir.

1946-cı ilin 25 noyabrında Səbahəddin Əlinin maliyyə yardımı ilə "Marko Paşa" adlı həftəlik satirik jurnal çıxartmağa nail olur. Lakin çox keçmədən "Marko paşa" jurnalındakı sərt xarakterli çıxışlarına görə Səbahəddin Əli, Əziz Nesin, Rüfət Ilqaz və jurnalın karikatüristi Mustafa Uykusuz (Mim Uykusuz) həbs edilir. Qeyd edək ki, "Marko Paşa" Türkiyədə ilk siyasi satira jurnalı idi və türk satirasının inkişaf tarixində mühüm oynamışdır. "1945-1950 illər arası mizah (satira) baxımından inkişaf dövrü olmuş, gənc cümhuriyyətin satira kadrları məhz bu dövrdən etibarən yetişməyə başlamışdır" [12, s.8].

Əziz Nesinin ilk kitabı 1946-cı ildə İstanbulda "Arkadaş" mətbəsində "Yumoristik hekayələr seriyası 1" başlığı ilə çap etdirdiyi 16 səhifəlik "Partiya vurmaq və partiya qurmaq" adlı broşüra-kitabı idi. Kitabın sonunda müəllif qeyd edirdi ki "yumoristik hekayələr seriyasının ikinci kitabı olan *"Qapan qaçan partiyası" növbəti həftə nəşr olunacaqdır"*[9, s.16]. Görünür, 1946-cı ildə Əziz Nesin "Marko Paşa"ya görə həbs olunduğu və bütün yazıları, kitabları müsadirə edildiyi üçün adıçəkilən kitabın nəşri reallaşmamışdır. "Partiya vurmaq və partiya qurmaq" kitabını isə müəllif həm kiçik həcmli olduğu üçün, həm də içindəki yazılarını bəyənmədiyi üçün sonralar təkrar çap etdirməmişdir. Bu səbəbdən, Əziz Nesin professional yaradıcılığa başlamasını ilk hekayə kitabı olaraq 1953-cü ildə xeyli çətinliklə çap etdirməyi bacardığı 48 səhifəlik "Geriyə qalan" kitabından götürmüşdür. Bu ilə qədər yazdığı satiralarını Firudin Andaç "yazıçılığa hazırlıq dövrü"nün məhsulları kimi qiymətləndirirdi [2, s.45]. Tahir Alanqu da Əziz Nesinin satirik hekayə yaradıcılığı ilə bağlı yazırdı ki : "satira hekayəçiliyini 1946-1951-ci illər arasında inkişaf etdirdiyini, həyatında baş verən müxtəlif hadisə görə qısa fasilələrdən sonra əsas hekayə yazıçılığına 1954-cü ildə başladığını söyləmək olar" [1, s.654].

Satirik sənətkar əsərlərindəki bədii gülüşün onun öz şəxsi həyatından, gördüklərindən qaynaqlandığını dəfələrlə qeyd etmişdir. *"Biz gözü yaşlı insanlarıq; sevinib ağlayırıq, kədərlənib ağlayırıq, qəhərlənib ağlayırıq. Satiramız da buna görə göz yaşlarından süzülən bir neçə damla qəhqəhədir... Bizim qələmimizin yönünü həyatımız cızmışdır; ona görə belə acı, kəskin, gözü yaşlıdır. Hətta gülüşümüz belə..." [7, s.47].*

Avtobioqrafizm nöqteyindən yanaşdıqda Əziz Nesinin satirik hekayələrinin əksəriyyətinin qəhrəmanı olan kasıb yazıçı-jurnalist Həsən Yazman obrazı xüsusi diqqət çəkir. Həsən Yazman yazıçının qırxa yaxın hekayəsinin obrazı kimi çıxış etmişdir. Həmin hekayələrin əksəriyyətində Həsən Yazman həyat yoldaşı, bir oğul və bir qız övladı olan, bəzi hekayələrində yaşlı anası və qaynanası ilə birlikdə kirayə bir evdə yaşayan yazıçı və qəzet müxbiridir. Həsən Yazmanın baş obraz kimi çıxış etdiyi hekayələrində oxşar süjet xətti özünü büruzə verməkdədir.

Yuxarıda qeyd etdiyimiz kimi müəllifin ilk hekayə kitabı kimi təqdim etdiyi "Geriyə qalan" kitabının ilk nəşri 1953-cü ildə, ikinci nəşri isə 22 il sonra 15 hekayə daha daxil edərək 1975-ci ildə yenidən çap etdirmişdir. "Geriyə qalan" kitabında "Təraşa vaxtım yoxdur", "Hansı mahnını istəyirsiniz", "Deməli elə, Mustafa bəy" adlı hekayələrində yazıçı Həsən obrazı ilə yavaş-yavaş tanış oluruq.

Bu tip hekayələrdən biri yazıçının 1957-ci ildə çap olunmuş "Dəlilər dağılışdılar" adlı kitabında yer alan "Həsən bəyin kitabı çıxdı" adlı satirik hekayəsidir. Hekayə birinci şəxsin-yazıçı Həsən Yazmanın dilindən təhkiyə olunmaqdadır. "Həsən bəyin kitabı çıxdı" hekayəsində Həsən Yazmanın çantasında müxtəlif mövzularda, fərqli janrlarda nəşrə verilməyə hazır yazılarının olduğu təsvir olunur. Həsən Yazman roman, hekayə, felyeton və nəşriyyatda olan kitabından gələcək məvaciblərinin ardıca bir-bir getsə də əli boş geri qayıtmalı olur. Bütün bu hadisələr ədibin öz çətin həyat yolunun bədii əksidir. Əziz Nesinin və dövrünün bir çox yazıçılarının həyatından götürülmüş reallıqların əksi olan bu satirasında Həsən Yazmana öz kitabını satmağa çalışan qəzet satıcılarının işbazlığı təsvir olunur. Məlum olur ki, satıcılar yazıçıları görər görməz həvəslə qışqırıb reklam edirlər ki, müəlliflər sevinərək öz kitablarını alsın. Kitabının çapı xəbərinə sevinən yazıçı isə cibindəki son pulunu verərək öz kitabını satın alır.

Əziz Nesin yazıları ilə qazanc əldə etmiş, ailəsinin dolanışığı məhz onun qələmindən asılı olmuşdur. Buna görə də gecə-gündüz yazmaq məcburiyyətində qalmışdır. Eynilə "İnək doğan milçək" yumoristik hekayəsində də hər gün qəzetə yeni mövzuda, maraq doğurub oxunaqlı edəcək yazı hazırlamağın çətinliklərindən bəhs edir.

İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra ABŞ dünya ölkələri arasında SSRİ-nin nüfuzunu zəiflədib öz aktivliyini artırmaq məqsədilə 12 mart 1947-ci ildə Trumen doktrinasını irəli sürür. Bu xarici siyasət proqramına əsasən, ABŞ Yunanıstan və Türkiyəyə 400 milyon dollar iqtisadi yardım ayıraraq öz müttəfiqlərinə çevirməklə hərbi qüvvələrini də bu iki ölkə ərazisinə yerləşdirməyə başlayır [5, s.96]. Əziz Nesin təəssübkeş ziyalı olaraq xalqın asılı vəziyyətə düşməsindən narahatlıq duyaraq Trumen doktrinası əleyhinə “Hara gedirik” adlı yazı hazırlayır. Hələ çap mərhələsində olarkən polis tərəfindən kitabça yığışdırılır, nəşri yarımçıq qalır və Əziz Nesin həbs edilir. 10 Ay ağır həbs və 3 ay 10 günlük Bursaya sürgün cəzası alır. Sürgündə olarkən tamam pulsuz və köməksiz vəziyyətdə qalan ədib yemək pulu üçün hətta ağzındakı qızıl dişlərini belə çəkdirib satmışdır. Bu soyuq sürgün günlərinin birində Əziz Nesin yeganə adyalını satmaq istəmiş, lakin tanımadığı şəhərdə köhnə adyalını sata biləcəyi yer tapa bilməyib, üstəlik soruşmağa da utandığı üçün bağlaması ilə birlikdə geri dönməyə məcbur olmuşdur. Bu illər Əziz Nesinin həyatı üçün ən çətin, ən sıxıntılı illərdir. Bursa sürgünündə olarkən çəkdiyi əziyyətlərdən, narahatlıqlarından, qarşılaşdığı tragikomik vəziyyətlərdən 1957-ci ildə yazdığı “Bir sürgünün xatirələri” adlı xatirə kitabında bəhs edir.

1968-ci ildə “Vətən sağ olsun” adlı hekayələr kitabında çap olunan “Saatınız neçədir, cənab?” hekayəsində maddi sıxıntı çəkən Həsən “getdikcə qoluna ağırlıq edən”, “gözündə böyüyən” saatını satmaq qərarına gəlir və neçə gün bunun fikrini çəkir. Lakin sata bilməyib cibi boş evinə dönməli olur. Bu hekayənin baş qəhrəmanı yazıçı özü olduğu kimi, baş vermiş əhvalat da ədibin Bursadakı məşəqqətli sürgün günlərində başına gəlmiş hadisələr əsasında qələmə alınmışdır. “Saatınız neçədir, cənab?” hekayəsində ədib yenə o sıxıntılı, ağrılı günlərinə geri dönmüş, öz ağrı-acılarını, göz yaşlarını gülüşə çevirmişdir. Hekayədə bir tərəfdən türk ziyalısının çəkdiyi maddi sıxıntılar təsvir olunur, digər tərəfdən isə boğazdan yuxarı danışan insanlar, xalqın sabahını “düşünən” və ölkənin inkişafı üçün “çarə axtaran ziyalılar” tənqid olununur.

Əziz Nesin Bursa sürgünündən qayıtdıqdan sonra 1948-ci ildə “Əziznamə” adlı daşlama- həcv şeirləri kitabına görə axtarışa verilmiş, həbs olunduğu zaman isə sanki təhlükəli bir cinayətkar yaxalanıbmış kimi rəftar görmüş, “Babiali canavarı” adlandırılmışdır. *“Bre canına yandığımın işi... Məgər mən nə imişəm? Qəzetləri oxuduqca öz-özümdən qorxmağa başladım. Ankara canavarı, Adabazarı canavarı, Niğdə canavarı, bir də yeni Babiali canavarı...”* [6, s.10] Hətta istintaq prosesi zamanı belə 4 ay təcridxanada saxlanılır və sonunda bəraət alır. Ədib 1957-ci ildə “Toros canavarı” hekayəsində Nuri Pakürək-Toros canavarı obrazınını yaradarkən də məhz bu hadisədən təsirlənməsi və öz həyatından avtobioqrafik məqamlar daxil etməsi hiss olunur.

1950-ci ildə Əziz Nesin təkrar həbs olunur. Səbəb isə fransız filosof Corc Politzerin “Fəlsəfənin elementar prinsipləri” adlı kitabının ön sözünü türk dilinə (“Marksist fəlsəfə dərsləri” adı ilə) tərcümə etdiyi iddiası olur. Halbuki, Əziz Nesin fransız dilini bilmirdi. Buna baxmayaraq, haqsız iddia ilə 16 ay məhkumluq, 16 ay da şərti cəza ilə hökm oxunur və Nevşehir həbsxanasına göndərilir. Cəza müddəti bitib İstanbula qayıtdıqdan sonra heç bir mətbu orqanda iş tapa bilmir, yazılarını çap etdirməyə heç bir nəşriyyat yaxın durmur. Buna görə də “Marko Paşa” və onun davamı kimi çıxmış satirik jurnallarda çap olunmuş yazılarından 14 hekayə seçib kitab tərtib etməyə qərarına gəlir. Kitabının nəşri barədə elanı belə Əziz Nesin adına görə heç bir qəzet dərc etmir. “*Bu ilk hekayə kitabımın adını “Geriyə qalan” qoymuşdum. Çünki səkkiz illik məşəqqətli jurnalistlik həyatımdan, o zamanın iqtidarlarıyla olan amansız mübarizəmdən, sonunda qala-qala tərtib etdiyim 14 hekayə qalmışdı”* [6, s.6].

1956-cı ildə İtaliyada keçirilən Beynəlxalq Yumor Müsabiqəsində “Qazan mərasimi” hekayəsinə görə Qızıl Palma mükafatına layiq görülür. 1957-ci ildə “Fil Həmdi” hekayəsinə

görə ikinci dəfə Qızıl Palma mükafatını qazandıqdan sonra Türkiyədə Əziz Nesin adına olan qeyri-rəsmi nəşr qadağası ortadan qalxır. Məhz bu mükafat Əziz Nesinin yaradıcılığı, yazılarının nəşri üçün dönüş nöqtəsi olur. Bu tarixdən başlayaraq, Əziz Nesin öz imzası ilə yazılarını çap etdirir.

1957-ci ildə ilk dəfə "Toros canavarı" kitabında çap olunan "Böyük mükafat" adlı novellasında yazıçı Həsən obrazının lotereya bileti satılan köşkün önündə böyük mükafatı qazandığını təxəyyülündə canlandırması yumoristik çalarlarla təsvir olunur. Lotereya bileti almaq üçün 50 lirə pulunu verməyə tərəddüd edir və əgər böyük mükafatı qazanarsa, həyatında necə dəyişikliklərin olacağını düşünüb xəyal etməyə çalışır. Nəhayət, qərar verir ki, milyonçu olmaq heç də asan deyil. *"Bu milyonçuluq elə bir bəla imiş ki, yarım saatına belə dözə bilmədim, hələ xəyalını qurarkən belə insanlıqdan çıxdım"* [10, s.93].

Həsən bəyin baş qəhrəman olduğu hekayələrin bəzilərində onun maddi imkansızlığı ucbatından ailə qura bilməmiş yazıçı müxbir obrazı kimi təqdim olunur. Bunlardan biri "Məni anlayan tək qadın" adlı yumoristik hekayəsidir. Bu əsər 1965-ci ildə "Sosializm gəlir, çəkilin" adlı hekayələr kitabında yer almışdır. Hekayədə yazıçının imkansızlığına, yoxsul həyat tərzinə tənə edən bir qrup varlı təbəqə nümayəndələrinin tənqidi verilmişdir. "Onun (Əziz Nesinin) tənqidləri təkcə ictimai nizamın qüsurlarının tənqidinə yönəlməmişdi. İnsanların yanlışlıqlarını, əskikliklərini də göstərərək xəbərdaredici, təsiredici və yönləndirici bir məqsəd daşıyırdı" [2, s.46].

1957-ci ildə ilk dəfə İstanbulda kitab halında çap olunmuş və "Taxtalı köydən məktublar" adı ilə dilimizə tərcümə edilmiş "Ölmüş eşşək" adlı povestində də əsərin baş qəhrəmanı alleqorik obraz kimi təqdimatı olan, lakin əsəri oxuduqca insan obrazı olduğu anlaşılan "ölmüş eşşək" də məhz Həsən Yazman obrazıdır. Povestdə baş qəhrəmanın intiharından sonra cəsədinin başına toplaşan insanlar, onun 40-45 yaşlarında, bəstəboylu, qələm əhli olduğu jaketinin qollarının yeyilməsindən, ehtiyac içində yaşadığı isə şalvarının yeyilmiş dizlərindən, ayaqqabılarının bağlarının fərqli rəngdə olmasından anlaşılan biri kimi təsəvvür edirlər. Polislərin onun cibindən tapdığı şeirlərdə "ziyanlı fikir", şübhəli məna axtarıb kağızları siyasi polis şöbəsinə aparırlar. Bu məqam Əziz Nesinin siyasi polis nəzarətində keçən həyatının bədii mətndə inikasıdır.

"Siqaret qutusunda evlənmə təklifi" adlı yumoristik hekayəsi 1957-ci ildə "Hansı partiya seçiləcək" adlı kitabında çap olunmuşdur. Əziz Nesin həbsxanada olarkən gecə-gündüz demədən imkan tapdıqca yazmış məhbusluq zamanlarında belə ailəsini dolandırmaq üçün gizli imzalarla qəzet və jurnallarla əməkdaşlıq etmişdir. Eyni zamanda həbsxana xatirələri ilə bağlı da çoxlu sayda hekayələri vardır. "Siqaret qutusunda evlənmə təklifi" yumoristik hekayəsi də bu qəbildəndir. Hekayə Həsən bəyin dilindən nəql olunur, həbsxanada siyasi hökmlü olaraq məhbusluq həyatının çətinlikləri fonunda yumoristik gülüş yaradır. *"Məhbusluğun üstündən bir il keçdimi dörd bir yana qadın ruhu çökər və kağızlar, kitablar belə qadın kimi qoxumağa başlayar* [8, s. 119]. Özünə sevgili arzulayan Həsən bəyin azadlığa çıxmasına 3 ay qalmış təsadüfən siqaret paketində evlənmə təklifi alması onu sevindirir və bu xoş "təsadüf" 4 dəfə onun bəxtinə çıxır. Dörd namizəd arasında seçim edə bilmədiyi üçün hamısı ilə məktublaşır və azadlığa çıxdıqdan sonra qızlardan birini seçib evlənəcəyi xəyalı ilə yaşayır. Həsən bəy azadlığa buraxıldığı gün bunun həbsxana yoldaşları tərəfindən hazırlanan bir zarafat olduğunu öyrənir. Sevgililəri real olmadığı üçün məyus olsa da son məhbusluq günlərini xoş əhvali-ruhiyyə ilə keçirməsinə səbəb olur.

Əziz Nesinin yumoristik və satirik hekayələrinin böyük əksəriyyəti birinci şəxsin dilindəndir. Bu hekayələr ya müəllifin kənardan şahidlik etdiyi hadisəni, ya şəxsən iştirakçısı olduğu əhvalatı keçmiş xatirə kimi nəql etməsi üslubundadır.

"Üç gündə ingiliscə" adlı hekayəsi də məhz uşaqlıq və gənclik xatirələri əsasında yazılmış avtobioqrafik yumoristik hekayədir. Bu hekayə də təhkiyə üslubunda yazılmış, baş

qəhrəmanın adı da Həsən olaraq verilmişdir. Hekayə 1968-cı ildə çap olunmuş "Vətən sağ olsun" adlı kitabında çap edilmişdir. Orta məktəbdə oxuduğu zaman ingilis dili dərsi tədris olunan "Metod Alge" kitabı ilə bağlı ayrıca bir xatirəsi vardır. 1928-ci ildə Vəfa orta məktəbində oxuduğu zaman istifadə etdikləri dərslikləri, o cümlədən ingilis dili dərsi üçün lazım olan "Metod Alge" kitabını pulu olmadığı üçün almaqda çətinlik çəkir və buna görə də dərslərindən geri qalır. Bu hekayədə məhz "Metod Alge" kitabının adını çəkərək ordan öyrəndiyi hekayədən bəhs edir. Atasının yanında xarici dil biliyini nümayiş etdirmək üçün məktəb illərində bu kitabdan əzbərlədiyi hekayəni atasının dediklərini sanki tərcümə edirmiş kimi ingilis qonşularına danışır.

"Əziz Nesin uşaqlıqdan idmana maraq göstərmiş, məktəb illərində güləşlə məşğul olmuş, hətta yarışlarda belə iştirak etmişdir. Lakin idmanın sağlam və gümrah yaşayışa xidmət etməsindən daha çox, azarkeşlərin bir-biri ilə kobud rəftarı nəticəsində zərərli görünməsi Əziz Nesinin satirik qələminin tənqid obyektinə çevrilmişdir" [4, s.156]. Bu hekayələrdən biri "Çox vacib işi var" adlı satirasıdır ki, burada da Həsən bəy obrazı ilə qarşılaşırıq. Qısa həcmli bu hekayədə mühim bir iş ardınca tələsən Həsən bəy futbol adını eşidən kimi hər şeyi unudaraq rastlaşdığı tanışı ilə oyun hesabını müzakirə eləməyə yollanır.

"Çarlz Bodler gülüşün xoşbəxtlik cənnətindən gəlmədiyini, eynilə ağlamaq kimi kədərin övladı olduğunu söyləyir"[3] Əziz Nesinin həyat tarixçəsi ilə, özünün yazdığı bioqrafiyası ilə tanış olduqca hekayələrinin kəskin satirik məzmununu daha dərindən dərk etmək mümkün olur. Əziz Nesinin satirik hekayələrində həyat yolu ilə paralellik təşkil edən məqamlar fonunda tənqid olunan ictimai, siyasi, sosial qüsurlar, problemlər müasir dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Əziz Nesin ağrı-acılı, sıxıntılar içində keçən həyat yolunun göz yaşlarını xalqın içindən çıxmış Həsən Yazman obrazının simasında gülərək düşünək deyə məhz bu obraz vasitəsilə bu günümüzədək miras qoymuşdur.

ƏDƏBİYYAT


1. Alangu T. Cümhuriyyetden sonra hikaye ve roman (1940-1950). İstanbul matbaası, 1965, 863 s.
2. Andaç F. Gülen düşünce, muhalif kimlik: Aziz Nesin. İstanbul: İnkılap kitabevi, 2015, 294 s.
3. Avcı, A. (2003). Toplumsal Eleştiri Söylemi Olarak Mizah ve Gülmece. Birikim dergisi (166), 80-96.
4. Həsənli, M. (2023). Əziz Nesinin idman mövzusunda yazdığı satiralarında tənqid hədəfləri. Müqayisəli Ədəbiyyatşünaslıq(2), 153-157. https://doi.org/10.59849/2663-4414.2023.2.153
5. Malkoç, E. (2012). Türk Basınında Truman Doktrini Ve Türkiye'ye Amerikan Yardımları (1947-1950). Recent Period Turkish Studies(9), 89-127.
6. Nesin A. Geriye kalan. İstanbul: Nesin yayınevi, 2022, 128 s.
7. Nesin A. Gömüyü arayan adam (Fotoğraflarla Aziz Nesinin yaşamöyküsü). İstanbul: Nesin yayınevi, 2019, 174 s.
8. Nesin A. Hangi parti kazanacak. İstanbul: Nesin yayınevi, 2017, 168 s.
9. Nesin A. Parti vurmak, parti kurmak. İstanbul: Arkadaş matbaası, 1946, 16 s.
10. Nesin A. Toros canavarı. İstanbul: Nesin yayınevi, 2018, 160 s.
11. Nesin A. Türkiye şarkısı Nazım. İstanbul: Nesin yayınevi, 2019, 416 s.
12. Yardımcı, İ. (2010). Mizah Kavramı ve Sanattaki Yeri. Uşak Üniversitesi Sosyal Bilimler Dergisi, 3(2), 1-41. https://doi.org/10.12780/UUSBD69

УДК 80

*Мая Мурад кызы Гасанли*
*Институт литературы имени Низами Гянджеви НАНА*

АВТОБИОГРАФИЗМ В САТИРАХ АЗИЗА НЕСИНА:
В КАЧЕСТВЕ ПРОТОТИПА ГАСАН ЯЗМАН
*РЕЗЮМЕ*

*Ключевые слова:* сатира, критика, Азиз Несин, турецкая литература, прототип, образ писателя Гасана

Многогранное художественное творчество великого турецкого поэта-сатирика Азиза Несина содержит значительное количество образов и мотивов, основанных на его личной биографии и событиях, с которыми он столкнулся. Происходившие с ним события писатель в основном передавал читателям своим сатирическим пером. В этом контексте персонаж Гасана появляется почти в сорока рассказах писателя, в которых он выступает в качестве прототипа. В статье образ Гасана Язмана и его переживания сопоставляются с личной биографией писателя. Моменты художественного отражения трудной жизни художника-сатирика в его произведениях объясняются на фоне анализа персонажа, прототипом которого он является.

UDC 80

*Maya Murad Hasanli*
*Institute of Literature named after Nizami Ganjavi,*
*Azerbaijan National Academy of Sciences*

AUTOBİOGRAPHİSM İN THE SATİRES BY AZİZ NESİN:
THE PROTOTYPE OF HASAN YAZMAN
*SUMMARY*

*Key words:* satire, criticism, Aziz Nesin, Turkish literature, prototype, the character of Hasan Yazman

In the intricate literary oeuvre of the renowned Turkish satirist Aziz Nesin, a wealth of imagery and motifs drawn from his personal autobiography and life experiences emerges. The author often communicated aspects of his own life to readers through his distinctive satirical style. Notably, the character of Hasan appears in nearly forty of his stories, often functioning as a representation of the writer himself. This article explores the parallels between Hasan Yazman and his personal biography. The aspects of the satirist's challenging life, as depicted in his works, are explained in the context of analyzing the character who serves as the prototype.

**Daxil oldu: 13.03.2025-ci il**